

Səma ZAMİQQIZI

# Salam, Şuşa!

Salam, Şuşa, eşidirsən,
həmin səsəm
Səni hər gün yuxulara səsləyən səs
Salam Şuşa, tanıdınmı?
həmin kəsəm
Bu görüşə hər gün ümid bəsləyən kəs

Sən tanıdın
Qucaq açdın
Bil ki, görüb bu qolları
Qarşıma çıxan yolları
Qaça-qaça gəlmişəm mən
Cıdır düzün görmüşəm mən
Canlanmışam bulağından su içəndə
Dua edib Gövhər ağa məscidində
Xəbər aldım, sən də bizi gözləmisən,
Kövrək Xarıbülbülləri
Öz köksündə gizləmisən
Keçən bu qəmli illəri
Susub sakit izləmisən

İndi susma, danış, Şuşa,
Gör çatmışam hansı yaşa...
Danış, qoy qəlbim alışsın
İndi səndən, istəmirəm
kimlərsə mənə danışsın
İstəyirəm özün məni
danışdırıb dindirəsən
Öz bənzərsiz səsinlə
sevindirəsən
İndi susma, danış, Şuşa
Sən igidlər məskənisən başdan-başa
Gördün necə vuruşdular mərd oğullar?
Gördün necə olmuşdular
düşməninə dərd oğullar?
Gördünmü haqqın önündə
haqsız düşmən baş əyəndə?
Gördünmü o boş başlara
dəmir yumruqlar dəyəndə?
Zəfərə qığılcım olan
İlqar, Polad adlı
bir nəfəs var idi, unutmuram!
Mərd Hikmətin baxışında
neçə şəhid kəs var idi, unutmuram!
Topçu Vüsal duruşunda
tarixi bir dərs var idi, unutmuram!
"Əziz Şuşa,
Sən azadsan!" deyiləndə
Ürəkləri alışdıran
hiss var idi, unutmuram!
Vətən, millət yolunda
and içib gəldik, Sənə çatdıq!
Qarşımıza çıxan
mənfur düşmənləri biçib gəldik,
Sənə çatdıq!
Cəbrayılın amalından keçib gəldik
Xudayarın xəyalından keçib gəldik
Sənə çatdıq!

Çatan kimi torpağını
düşmənin murdar izindən təmizlədik
Yaralı, kövrək qəlbini
Üzeyirin bəstəsiylə
Bülbülün həzin səsiylə
"Qarabağ şikəstəsi"ylə əzizlədik...

Sən sonsuz bir ümid oldun,
bütün ürəklərdə bitən
Sənsən şəhid anasının
sağ olsun dediyi Vətən
İgidlər sənə qovuşdu,
sən əbədi dincliyinə
Bundan sonra biz də səni
qaytararıq gəncliyinə
Sən özün də bizim üçün
işıqlı bir gələcəksən
Əziz Şuşa Sən azadsan,
Sən yenə dirçələcəksən!!!